# Bu kino ki var...

## 117 yaşını qeyd etdiyimiz milli kinomuz şərəfli bir inkişaf yolu keçib



Aydın Kazımzadə

**Bu il 117 yaşını qeyd etdiyimiz Azərbaycan kinosunu obrazlı şəkildə hündür bir binaya bənzətsək, bu binanın kərpic-kərpic ucaldılmasında yüzlərlə sənətkarımızın böyük zəhmətinin olduğunu görərik.**

Belə bir fikir söylənilir ki, kino tarixi möcüzələr tarixidir. Elə "hərəkət edən fotoşəkillərin" kəşfinin özü də əsl möcüzə idi. Lakin bizim üçün ən böyük möcüzə Bakıda I Dövlət kinofabrikinin yaradılması, fəaliyyətə başlaması, burada kino işçilərinin səyi ilə filmlərin istehsalı, Azərbaycan kino salnaməsinə yeni-yeni səhifələrin yazılması idi.

Azərbaycan kinosu sovet məkanında təşəkkül tapmasına, formalaşmasına və inkişaf etməsinə baxmayaraq, qədim milli mədəniyyətimizin ənənələrindən qidalanmış və xalqımızın xarakterinə, tarixinə xas olan xüsusi əlamətlərini özününküləşdirə bilmişdir. "Bismillah", "Lətif", "İsmət", "Almaz", "Dəcəl dəstə", "Kəndlilər", "Yeni horizont", "Səbuhi", "Arşın mal alan", "Fətəli xan", "Bəxtiyar", "Görüş", "Qara Daşlar", "O olmasın, bu olsun", "Bir məhəlləli iki nəfər", "Ögey ana", "Uzaq sahillərdə", "Bir qalanın sirri" və s. filmlərə müxtəlif dəst-xətləri, üslubları olan rejissorlardan A.M.Şərifzadə, M.Mikayılov, A.Quliyev, Q.Salamzadə, S.Mərdanov, R.Təhmasib, L.Səfərov, T.Tağızadə, H.Seyidzadə, Ə.İbrahimov, H.İsmayılov, K.Rüstəmbəyov quruluş vermişlər.

Çəkilişlərdə operatorlardan C.İsmixanov, İ.Frolov, Ə.Atakişiyev, M.Mustafayev, Ə.İsmayılov, M.Dadaşov, A.Nərimanbəyov, X.Babayev, T.Axundov, R.Ocaqov, C.Məmmədov, Ə.Hüseynov, rəssamlardan Q.Səlimxanov, A.Qumriyev, C.Əzimov, E.Rzaquliyev, K.Nəcəfzadə, N.Zeynalov, M.Hüseynov, bəstəkarlardan Ü.Hacıbəyli, Niyazi, T.Quliyev, Q.Qarayev, R.Hacıyev, aktyorlardan H.Ərəblinski, Ə.Hüseynzadə, M.Əliyev, İ.Orucova, M.Sənani, M.Mərdanov, Ə.Məmmədova, M.Davudova, S.Ruhulla, Ə.Ələkbərov, A.Gəraybəyli, H.Rzayeva, L.Bədirbəyli, N.Məlikova və bir çox başqaları iştirak etmişlər.

Zaman keçdikcə nəsillər bir-birini əvəz etmiş, yaşlı nəsil gənc həmkarları ilə çiyin-çiyinə birgə işləyərək, milli kino tariximizi zənginləşdirən sənət əsərləri yaratmışlar. Kinomuzun tarixində elə səhifələr, elə dövrlər var ki, bunları mərhələ adlandırmaq olar. Həmin mərhələlər kino sənətimizin əsas istiqamətini, onun ənənələrini təyin etmişdir. Məsələn, dahi Azərbaycan bəstəkarı Ü.Hacıbəylinin eyniadlı operettası əsasında dünya şöhrəti qazanan "Arşın mal alan" musiqili kinokomediyası (1945) çəkilmişdir. 60-cı illərin sonunda istehsal olunan "Bir cənub şəhərində" bədii filmi kinomuza yeni ab-hava gətirmişdir. O dövrdə və sonrakı illərdə Azərbaycanda "Uşaqlığın son gecəsi", "Bizim Cəbiş müəllim", "Dəli Kür", "Şərikli çörək", "Yeddi oğul istərəm", "Axırıncı aşırım", "Ad günü", "Babək", "Dədə Qorqud", "Gün keçdi", "Nəsimi", "Yaramaz" və s. dəyərli filmlər yaradılmışdır. "Arşın mal alan"dan (1945) sonra "İstintaq" filmi SSRİ Dövlət mükafatına layiq görülmüş, Düşənbədə keçirilən Ümumittifaq kinofestivalının Baş mükafatını almışdır.

Respublikamızda sənədli və elmi-kütləvi ("Azərbaycana səyahət", "Köçərilər", "Şöhrətli Azərbaycan", "Ordenli Azərbaycan", "Şəfa nəğməsi", "Arazın o tayında", "Bakıdan Göygöldək", "Xəzər neftçiləri haqqında dastan", "Xəzəri fəth edənlər", "S.M.Kirov adına körfəzdə", "Səadət yolu ilə", "Məhəmməd Füzuli", "Bakı və bakılılar" və s.), animasiya ("Abbasın bədbəxtliyi", "Cırtdan", "Fitnə", "Bulud niyə ağlayır?", "Şah və xidmətçi", "Qız qalası əfsanəsi", "Cücələrim", "Aslan və iki öküz", "Şahzadə ? qara qızıl" və s.) filmlərinin yaranmasında və inkişafında da böyük yaradıcı heyət çalışmışdır. Bu sahədə fəaliyyət göstərmiş sənədli kino ustalarından N.Bədəlov, S.Bədəlov, Ə.Ələkbərov, C.Məmmədov, Ə.Həsənov, Z.Kazımova, T.Sultanov, Ş.Şeyxov, İ.Əfəndiyev, Ə.Musayev, animatorlardan Məhəmməd Maqomayev, A.Axundov, N.Məmmədov, E.Axundov, B.Əliyev, R.Dadaşov, H.Əkbərov, M.Pənahi, V.Talıbov, F.Qurbanova öz yaradıcılıqları ilə adlarını milli kino tarixinə yazmışlar.

Yuxarıda adlarını çəkdiyimiz sənətkarların böyük əksəriyyəti dünyalarını dəyişsələr də, onlardan gələcək nəslə yaratdıqları yüzlərlə bədii, animasiya, sənədli və elmi kütləvi film, bir də əziz xatirələr yadigar qalmışdır.

**Mikayıl Mikayılov - kinorejissor, Azərbaycanın əməkdar incəsənət xadimi və əməkdar artisti**

Azərbaycan kinosunun təşəkkül tapmasında görkəmli incəsənət xadimləri, bəstəkarlardan Ü.Hacıbəyli və M.Maqomayevin, istehsalat təşkilatçılarından H.Terequlov və Ş.Mahmudbəyovun, gözəl tragik aktyor və rejissor A.M.Şərifzadənin, görkəmli dramaturq C.Cabbarlının və bir çox başqalarının böyük rol oynadıqlarını biz yaxşı xatırlayırıq.

Azərbaycan kinosunun keçdiyi yol heç də asan olmayıb. Hətta çətin illərdə dövlətimiz kinostudiyanın texniki təchizatına köməklik göstərmiş, vəsait ayırmışdır.

1924-cü ildə mən dramaturq C.Cabbarlı ilə birgə respublikamızda ilk kinofabrikin kandarından içəri ayaq basanda onun ştatında cəmi 48 nəfər adam var idi. Fabrikin özü isə keçmiş "Renessans" restoranının birmərtəbəli kiçik binalarında yerləşirdi və dekorasiya qurmaq üçün iki böyük olmayan meydançası vardı. 1923- cü ildə I Dövlət Kinofabriki istifadəyə veriləndən sonra böyük kinopavilyonun tikintisi yalnız 1928-ci ildə başa çatdırıldı və biz kino işçilərinin ixtiyarına verildi.

**Ağarza Quliyev - kinorejissor və kinoaktyor, Azərbaycanın əməkdar incəsənət xadimi**

Müharibədən əvvəlki dövrdə ekranlara buraxılan filmlərdən aydın görmək olardı ki, Azərbaycan kinosunda bir canlanma əmələ gəlmişdi. Kinematoqrafçılarımız sayca az film istehsal etsələr də, onlarda qaldırılan məsələlərin aktuallığına, ideya- bədii səviyyəsinin yüksək olmasına xüsusi fikir verirdilər. Lakin o zaman kino işçilərinin qarşısında duran bir sıra çətinliklər hələ də aradan qaldırılmamışdı. Bunlardan ən başlıcası isə kinostudiya binasının tammetrajlı bədii filmlər istehsalı üçün yararsız olması idi. Studiya müasir texniki avadanlıqlarla lazımi səviyyədə təmin edilməmişdi. Milli kadrların hazırlanmasına böyük ehtiyac duyulurdu.

Bütün bunlara baxmayaraq, kino işçilərimizdə yaratmaq eşqi tükənməz idi.

**Niyazi Bədəlov - sənədli filmlər rejissoru**

Mən Şəkidə bir neçə il kinomexanik işləyəndən sonra komsomol göndərişi ilə Moskvaya Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutuna getməli idim. Buna görə də çemodanımı götürüb Bakıya gəldim. Soraqlaşıb dəniz kənarının yaxınlığında yerləşən "Azərkino" studiyasını tapdım. Hələ o vaxt Hökümət Evi tikilməmişdi. Kinostudiya indiki kimi möhtəşəm olmasa da, burada bir canlanma var idi. Hansısa filmin dekorasiyası elə həyətin ortasında qurulmuşdu. Dayanıb bir xeyli tamaşa edəndən sonra studiyanın rəhbərliyini xəbər aldım. Məni direktorun yanına apardılar. O, mənim tərcümeyi-halımla tanış olandan, fikirlərimi öyrənəndən sonra dedi: "Azərbaycan kinosu yenicə dirçəlməyə başlayır. Biz onu daha da inkişaf etdirməliyik. Bunun üçün milli kadrlara böyük ehtiyacımız var. Düzdür, kənardan kino işçilərini studiyamıza dəvət edirik. Amma bunlar müvəqqəti haldır. Studiyanın əsas yaradıcı heyətinin özəyini özümüzünkülər təşkil etməlidir. Sizə şərait yaradacağıq. Gedin oxuyun, bu sənəti dərindən öyrənin. "Azərkino"nun gələcəyi siz gənc kadrlardan asılıdır".



Direktorun xeyir-duası ilə təkcə mən yox, daha bir neçə nəfər gedib Moskva və Leninqradda kino təhsili aldıq.

**Niyazi - bəstəkar, SSRİ xalq artisti, Dövlət mükafatı laureatı**

Bizim Azərbaycan kino sənəti mənim gözlərim önündə yüksəlmiş, yaradıcılıq baxımından möhkəmlənmiş və inkişaf etmişdir. Özündə böyük insani ideyalar yaşadan, insanlara sevinc və xoşbəxtlik bəxş edən hər bir kino əsəri eyni zamanda öz əməyi ilə doğma kinoya xidmət edən hər bir kəsi razı salır, məmnun edir.

**Leyla Bədirdəyli - Azərbaycanın xalq artisti, SSRİ Dövlət mükafatı laureatı**

- Kinematoqraf kimi böyük sənətə, "Azərbaycanfilm" kinostudiyasına bağlı olmağımla fəxr edirəm. Filmlərdə çəkilən aktyorlar tamaşaçıların ideya-bədii dünyagörüşünün genişlənməsində, onlara ekran vasitəsilə estetik zövq aşılanmasında mühüm rol oynayır. Aktyor eyni zamanda qəlblərdə uzun müddət yaşaya biləcək, nümunə, örnək ola biləcək tipik xarakterlər yaradır.

**İsmayıl Osmanlı - Azərbaycan və SSRİ xalq artisti**

Kino sənətini teatrı sevdiyim qədər sevirəm. Hər iki sahə bir aktyor kimi mənim nəzərimdə eyni əhəmiyyətə malikdir. Lakin bəzi xüsusiyyətlərinə görə kino sənəti, ekran daha mürəkkəb və çoxcəhətlidir.

**Rza Təhmasib-kinorejissor və aktyor, Azərbaycanın xalq artisti, SSRİ Dövlət mükafatı laureatı**

XX əsrin lap əvvəlindən həyatımı sənətə bağlamışam. Kinematoqrafa da heç vaxt biganə olmamışam. Əksinə, 20-ci illərin ortalarında I Dövlət kinofabriki nəzdində açılmış ikiillik kurslarda kino sənətinin sirlərini öyrənmişəm. O vaxtlar indiki şərait yox idi. Kinopavilyon hələ tikilib qurtarmamışdı. Studiyanın aktyor qüvvəsi, film çəkmək üçün ssenarilər yox idi. İndi o çətin illər arxada qalmış, xoş xatirəyə çevrilmişdir.

**Möhsün Sənani - Azərbaycanın xalq artisti**

Rejissor Mikayıl Mikayılov məni "İsmət" filmində çəkilməyə dəvət etdiyi gün heç vaxt xatirimdən çıxmır. O vaxtdan mən kinoda az rol oynamamışam və kinematoqrafıyanı həmişəlik sevmişəm.

O vaxtlar kinostudiyada milli kinorejissorlar, operatorlar, aktyorlar çox az idi. Lakin hamı həvəslə işləyirdi, yaxşı filmlər də çəkirdilər. Qısa vaxt müddətində, bir nəslin həyatı ərzində kinematoqraf çox böyük qüvvə toplaya bildi.

**Muxtar Dadaşov - kinorejissor və kinooperator, Azərbaycanın xalq artisti, Respublika Dövlət mukafatı laureatı**

Böyük dramaturqumuz Cəfər Cabbarlının adını daşıyan "Azərbaycanfilm" kinostudiyasında çox adamlar işləyib. Elələri olub ki, səssiz - səmirsiz gəldikləri kimi də gediblər, unudulublar. Çox sənətkarlarımız da var ki, onlar üçün Bakı kinostudiyası ikinci doğma evləri olub. Onların gecə-gündüzü bu evdə keçib. Mən belə sənətkarlardan M.Mikayılovun, "uçitel" çağırdığım A.Quliyevin, S.Mərdanovun, R.Təhmasibin, böyük və maraqlı ömür yaşamış digər görkəmli sənətkarlarımızın adlarını iftixarla çəkirəm.

* * *

Sovet kinosunun görkəmli xadimlərindən biri olan kinorejissor Yefim Dziqan bizim "Azərbaycanfilm"də "Fətəli xan" tarixi-bioqrafik filmini yaratmışdır. O, 40-cı illərin sonlarında Bakı kinostudiyasının bədii rəhbəri olmuşdur.

Tanınmış sənətkar **Yefim Dziqan** demişdir: "Bakı kinostudiyasında işlədiyim illər xoş xatirələrlə bağlıdır".

Sonralar Tatarıstan yazıçısı kimi tanınan Əbdürəhman Minski Bakı kinostudiyasında on ildən artıq əvvəlcə məsləhətçi, sonra ssenari şöbəsinin rəisi işləmişdir. **Əbdürəhman Minski** yazır: "Bakı kinostudiyasının istedadlı kollektivi mənim üçün ən yaxşı yaradıcılıq əməkdaşlığı məktəbi olmuş və olacaqdır".

Bu gün Azərbaycan xalqı 24 ildir ki, müstəqildir. Sürətlə inkişaf edən müstəqil dövlətimizdə, cəmiyyətimizdə milli kinomuz da yeni dövrünü yaşayır. Azərbaycan kinosu dünya kinosunun tərkib hissəsi kimi, artıq beynəlxalq aləmdə öz layiqli yerini tutmuşdur. Filmlərimiz müxtəlif beynəlxalq kinofestivallarda uğurla nümayiş etdirilir, mükafat və diplomlara layiq görülür.

Ümummilli lider Heydər Əliyevin vaxtilə dediyi "Milli kinomuzun sabahı bugünkündən də yaxşı olmalıdır. Bunun üçün əlimizdən nə gəlirsə etməliyik" tövsiyəsi artıq reallaşmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin kinomuzun daha da inkişafı ilə bağlı imzaladığı tarixi əhəmiyyətli sərəncamlarda nəzərdə tutulan bir sıra vacib tədbirlər artıq həyata keçirilir.

Hər il 2 avqust - Azərbaycan kinosu günü gələndə şərəfli inkişaf yolu keçmiş Azərbaycan kino tarixinin səhifələrini sanki həyəcanla yenidən vərəqləyir, dünyalarını dəyişmiş kino işçilərini bir daha yad edir, sənətkarların yaradıcılığı, istedadlı gənclərin işləri ilə yaxından tanış olur, bundan fərəh hissi duyuruq.